# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 225** **Bakı şəhəri, 22 aprel 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1064-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2565 (Cild I) ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nın 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 4.7-ci bənddə ", lakin ümumilikdə 20 faizindən çox olmamaq şərtilə" sözləri "məbləğində" sözü ilə əvəz edilsin.

2. 4.10-cu bəndin birinci cümləsində "30" rəqəmləri "24" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti.- 2024.- 25 aprel, № 83.- S.14.